AZƏRBAYCAN RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAF AGENTLİYİ

# MEDİA VƏ HÜQUQİ MAARİFLƏNDİRMƏ

BAKI - 2021

**“Media və hüquqi maarifləndirmə”.** Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Medianın İnkişaf Agentliyinin birgə layihəsi. Bakı-2021, 28 səh.

# JURNALİSTİN ÖHDƏLİKLƏRİ:

- Jurnalist peşəsinə sadiq olmalı, təqdim etdiyi material cəmiyyəti təmin edəcək səviyyədə hazırlanmalı, dəqiqliklə yoxlanılmalı, faktlar təhrif edilməməlidir;
- Jurnalist təmsil etdiyi orqanı təhlükə qarşısında qoymamalı, arzuolunmaz və təxribat yarada biləcək məlumatlardan uzaq olmalı, etik normaları gözləməlidir;
- Cəmiyyət qarşısında məsuliyyət daşıyan jurnalist işinə hörmətlə yanaşmalıdır;
- Çətin və problem yarada biləcək situasiyalarda hüquqlarını bilməlidir;
- İctimai həyatı və ictimaiyyəti maraqlandıran bütün hadisələri izləməli və araşdırmalı, düzgünlüyünə, qərəzsizliyinə və obyektivliyinə inanmadığı bir fikri müdafiə etməyə və ya peşə prinsiplərinə zidd bir iş görməyə məcbur edilməməlidir;
- Jurnalist insanların şəxsi həyatına toxunmamalı;
- Şər və böhtan xarakterli məlumatlara yol verməməli;
- Məxfi informasiyaları hərtərəfli araşdırmalı, mənbələrin məxfilik prinsipinə uyğun olaraq, mənbəyini və əlindəki sənədləri yalnız Qanunvericilikdə nəzərdə tutulmuş hallarda açıqlaya biləcəyini unutmamalıdır.

# MEDİADA YAYIMLANAN İNFORMASİYAYA DAİR TƏLƏBLƏR

**Hər bir jurnalist xidməti vəzifəsini yerinə yetirərkən insan hüquqlarını, demokratik prinsipləri və etik davranış qaydalarını nəzərə almalı, bitərəf olmalı, dəqiqlik, qərəzsizlik, obyektivlik prinsiplərinə əməl etməli, məsuliyyətini dərk etməli və işini peşəkarcasına görməlidir:**

- Hər bir şəxsin şərəf və ləyaqətinə hörmətlə yanaşılmalı, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməlidir;
- Şəxsin ailə və şəxsi həyatına aid olan sirrin qorunması üçün tədbir görülməlidir;
- Faktlar və hadisələr ədalətli şərh olunmalı, birtərəfliliyə yol verilməməlidir;
- Böhtana, təhqirə və nifrət çıxışlarına yol verilməməlidir;
- İrqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmamalıdır;
- Terrorçuluq, narkomaniya, zorakılıq və qəddarlıq təbliğ olunmamalıdır;
- Pornoqrafiya məzmunlu materialların dərc edilməsinə yol verilməməlidir;
- Yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərərçəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatlar həmin

şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmamalıdır;

- Cinayətin törədilməsində şübhəli bilinən şəxs cinayətkar kimi yox, şübhəli şəxs kimi təqdim edilməlidir;

- Qanuni qüvvəyə minmiş məhkəmə hökmü olmadan şəxsin təqsirli olub-olmaması barədə məlumatların dərcinə yol verilməməlidir;

- Təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai istintaq və təhqiqat məlumatları yayılmamalıdır;

- Əxlaqdankənar leksik məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir;

- Fal, magiya, parapsixologiya (ekstrasens, medium və s.), mövhumatçılıq və ya digər xürafələrin təbliğinə yol verilməməlidir.



## HADİSƏ YERİNDƏ JURNALİST:

- Hadisənin müşahidəçisi olmalı və təmkinini qorumalı;
- İnsanlarla münasibətdə, informasiya toplamaq anında hadisənin iştirakçılarına və şahidlərə hörmətlə yanaşmalı;
- Faktların araşdırılmasında diqqətli olmalı, təhrifə yol verməməli, rəsmi mənbələrə istinad etməlidir.

## CİNAYƏT, YAXUD İCTİMAİ MARAQ KƏSB EDƏN DİGƏR HADİSƏLƏR BAŞ VERDİKDƏ JURNALİST:

- Cinayət və ya ictimai maraq kəsb edən digər hadisələrin təqdimatında maarifləndirmə prinsiplərini əsas tutmalı;
- Hadisə ilə bağlı məlumatları toplayarkən, cinayəti qeydə alan hüquq-mühafizə orqanlarının əməkdaşları, zərərçəkmiş və onun qohumları, eyni zamanda bu əməldə təqsirli bilinənlərlə etik normaları gözləməklə münasibət qurmalı;
- Hadisə yerində araşdırma aparmağa imkanı olmadığına görə sonradan başqa mənbələrdən aldığı faktları dəqiqləşdirməlidir.

# İNTİHAR HADİSƏSİ NECƏ TƏQDİM EDİLMƏLİ?

- İntihar detallı, sensassiyalı təqdim edilməməli;
- İntiharın səbəbi, üsulu, metodu izah edilməməli;
- İntihar hadisəsi ilə bağlı fotoşəkillər və vizual materiallar açıqaşkar yayımlanmamalı;
- Qeyd edilənlərin təqlid effekti yarada biləcəyi nəzərə alınmalı;
- Riskli qrupların mövcudluğu unudulmamalıdır.



# AVROPA MƏHKƏMƏSİNİN PRESEDENT HÜQUQU: ÜMUMİ PRİNSİPLƏR

## Təqsirsizlik prezumpsiyası

***"Avropa İnsan Hüquqları Konvensiyası"nın 6-cı maddəsinin 2-ci bəndi:***

"Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir".

Avropa Məhkəməsi bildirir ki, təqsirsizlik prezumpsiyası o vaxt pozulur ki, cinayət əməlində ittiham olunan şəxsin təqsirli olması qanun əsasında sübut edilməzdən əvvəl həmin şəxslə bağlı dövlətin vəzifəli şəxsi tərəfindən verilən bəyanatda onun təqsirli olduğu fikri əks olunur. Hətta hər hansı formal qərar olmasa belə, bu bəyanat təqsirləndirilən şəxsin vəzifəli şəxs tərəfindən təqsirkar hesab edildiyini əsaslı olaraq düşünmək üçün kifayət edir.

Bununla bağlı Məhkəmə şəxsin məhkəmə araşdırmasının keçirilməsindən və cinayət törətməyə görə təqsirkar sayılmasından əvvəl dövlətin vəzifəli şəxslərinin öz bəyanatlarında sözləri düzgün seçmələrinin vacibliyini vurğulayır.



## Fikri ifadə etmək azadlığı və medianın rolu

***Avropa Konvensiyasının 10-cu maddəsinin 1-ci bəndi:***

“Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə üzv dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur”.

Avropa Məhkəməsi bildirir ki, demokratik cəmiyyətdə mühüm rol oynayan mətbuatın vəzifəsi öhdəliklərinə uyğun olaraq ictimai maraq doğuran bütün məsələlərlə bağlı informasiya və ideyaları yaymaqdır. Həmçinin ictimaiyyətin onu almaq hüququ var, əks təqdirdə mətbuat "ictimai nəzarətçi" kimi öz mühüm rolunu oynaya bilməzdi.



## İfadə azadlığının məhdudlaşdırılması

***Avropa Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndi:***

Bu azadlıqların həyata keçirilməsi:

- milli təhlükəsizlik;
- ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə;
- iğtişaşın və ya cinayətin qarşısını almaq üçün;
- sağlamlığın, yaxud mənəviyyatın qorunması üçün;
- digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün;
- gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün;
- ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün – qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

### Avropa Məhkəməsinin mövqeyinə görə tətbiq edilən məhdudiyyətlər:

1. Qanunla nəzərdə tutulmalı;
2. Avropa İnsan Haqları Konvensiyasında göstərilən hüquqların birinə hökmən əsaslanmalı;
3. Demokratik cəmiyyətdə zəruri olmalıdır.

## İnformasiya əldə etmək hüququ

İnformasiya əldə etmək hüququ dövlətin 10-cu maddəyə uyğun olaraq, pozitiv öhdəliklərindən biridir. Bu hüququn düzgün şəkildə həyata keçirilməsi dövlətlərdən məlumat almaq hüququ ilə bağlı qanunvericiliyin qəbul edilməsini, sorğu göndərənlərin vaxtında məlumatla təmin edilməsini, həmçinin məlumatların proaktiv yayılmasını təşkil etmək üçün daxili sistemlərin qurulmasını tələb edir.

Avropa Məhkəməsi qeyd edir ki, **“İnformasiya əldə etmək azadlığı hüququ əsasən hər bir kəsin başqalarının ona ötürmək istədiyi məlumatları qəbul etmək imkanını məhdudlaşdırmağı hökumətə qadağan edir”.**



## Məxfi qaydada əldə edilmiş informasiya

**Nümunə:** *Guja Moldovaya qarşı, 2008.*

Məxfiliklə bağlı Avropa Məhkəməsinin Böyük Palatasının qərar verdiyi çox mühüm işlərdən biri olan “Guja Moldovaya qarşı” iş əvvəlkilərdən fərqlənir, çünki o, vaxtilə prokurorluqda işləyən ərizəçi tərəfindən məlumatın açıqlanmasını əhatə edirdi. Ərizəçi məxfi məktubları açıqladığı üçün işdən çıxarılmışdır.

Məhkəmə bu işin onun üçün yeni məsələ qaldırdığını qeyd etmiş və qəbul etmişdir ki, dövlət qulluqçularının məxfiliyə riayət öhdəliyi böyükdür:

Demokratik cəmiyyətdə dövlət qulluqçularının missiyası hökumətə öz funksiyalarını yerinə yetirməkdə kömək etmək olduğu üçün və dövlətin onların demokratik yolla seçilmiş hökumətə kömək edəcəyini və əngəl törətməyəcəyini gözləmək hüququ olduğu üçün sədaqət və qoruma öhdəliyi onlar üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin mövqelərinin xarakteri baxımından dövlət qulluqçularının hökumətin müxtəlif qanuni səbəblərdən məxfi və ya gizli saxlamaq marağının olduğu informasiyaya çıxışı olur. Bununla belə, dövlət qulluqçularının sahib olduğu səlahiyyət ümumiyyətlə güclüdür.

Lakin Məhkəmə, həmçinin, ictimaiyyətin daxili məlumatlara çıxış marağının güclü ola biləcəyini nəzərə alaraq toqquşan maraqların mövcudluğunu da qeyd etmişdir:

Bu baxımdan Məhkəmə qeyd edir ki, dövlət məmuru işinin gedişatında yayılması və ya dərci güclü ictimai marağa cavab verə biləcək gizli məlumatlar daxil olmaqla təşkilatdaxili məlumatlardan xəbərdar ola bilər. Buna görə də, Məhkəmə hesab edir ki, dövlət məmuru və ya işçisi tərəfindən iş yerində qanunsuz davranış və qanun pozuntusu barədə xəbər verilməsi müəyyən hallarda qorumadan yararlanmalıdır.

Burada, balanslaşdırma mövqeyindən çıxış edərək məhkəmə qeyd edir:

**Yuxarıda göstərilən məxfiliyin qorunması öhdəliyi nəzərə alınaraq, açıqlama ilk növbədə şəxsin ali və ya digər səlahiyyətli orqanına edilməlidir. Aydındır ki, yalnız bu mümkün olmadıqda, informasiya son çarə kimi ictimaiyyətə açıqlana bilər.**



## Mənbələrin qorunması

***Avropa Məhkəməsi qeyd edir:***

"Jurnalist mənbələrinin qorunması mətbuat azadlığının əsas şərtlərindən biridir. Bu cür qoruma olmaması mənbələri ictimai maraq doğuran məsələlər haqqında ictimaiyyəti məlumatlandırmaqda mətbuata yardım etməkdən çəkindirə bilər. Nəticədə mətbuatın mühüm ictimai nəzarətçi rolu zəifləyə və onun dəqiq və etibarlı məlumatlar təmin etmək imkanına mənfi təsir göstərə bilər. Demokratik cəmiyyətdə mətbuat azadlığı üçün jurnalist mənbələrinin qorunmasının əhəmiyyətini və mənbə açıqlanması ilə bağlı əmrin həmin azadlıqdan istifadənin üzərindəki mənfi təsirini nəzərə alsaq, belə bir tədbir ictimai marağın əsas tələbləri ilə əsaslandırılmadıqda, Konvensiyanın 10-cu Maddəsi ilə uyğun ola bilməz".



## Şəxsi həyatın toxunulmazlığı

Şəxsi həyatın toxunulmazlığı Avropa Konvensiyasının 8-ci Maddəsində insan hüququ kimi birbaşa qoruma əldə edir:

***"Hər kəs şəxsi və ailə həyatına, mənzil və yazışma sirrinə hörmət edilməsi hüququna sahibdir".***

Bu hüququn üzərindəki məhdudiyyətlər ifadə azadlığının üzərindəki məhdudiyyətlərlə eyni sətirləri nəzərdə tutur. Şəxsi həyatın toxunulmazlığının qorunması üçün söz azadlığına məhdudiyyətlərin tətbiq edilməsi ilə bağlı məhkəmə təcrübəsinin mərkəzi mövzusu mübahisəli bəyanatların (qanuni) ictimai maraq doğuran məsələyə toxunub-toxunmamasıdır.

**Nümunə:** *Von Hannover Almaniyaya qarşı, 2004.*

***Məhkəmə "Von Hannover Almaniyaya qarşı" işində qeyd etmişdir:***

Şəxsi həyatın toxunulmazlığı anlayışı şəxsin adı, şəkli və ya fiziki və mənəvi toxunulmazlıq kimi şəxsi kimliklə bağlı aspektləri əhatə edəcək qədər genişdir; Konvensiyanın 8-ci Maddəsi ilə verilən təminat ilk növbədə hər bir fərdin digər insanlarla münasibətdə kənar müdaxilə olmadan şəxsiyyətinin inkişaf etdirilməsini təmin etməlidir. Hətta ictimai kontekstdə şəxsin başqaları ilə qarşılıqlı ünsiyyət zonası var ki, bu da şəxsi həyatın toxunulmazlığının əhatə dairəsinə daxil ola bilər. Şəklin yayımlanması şəxsin hətta ictimai xadim olduğu hallarda onun şəxsi həyatına müdaxilə edə bilər.

## Cəza:

**Nümunə:** *Cumpana və Mazare Rumıniyaya qarşı, 2004.*

Avropa Məhkəməsinin Böyük Palatası "Cumpana və Mazare Rumıniyaya qarşı" işi ilə bağlı qəbul etdiyi qərarında cinayət işləri üzrə cəzaların tətbiqinə daha sərt məhdudiyyət qoymuş və bildirmişdir:

Cəzanın verilməsi milli məhkəmənin səlahiyyətinə aid olmasına baxmayaraq, məhkəmə hesab edir ki, mətbuat təhqirinə görə həbs cəzasının tətbiq edilməsi yalnız bəzi hallarda xüsusən digər fundamental insan hüquqlarının əhəmiyyətli şəkildə pozulduğu nifrət nitqi və ya zorakılığa çağırış zamanı jurnalistlərin Konvensiyanın 10-cu maddəsi ilə təmin edilən ifadə azadlığı ilə bir araya sığır.



## Kimdir?

1. **Ərizəçi** — özünün həqiqi və ya ehtimal olunan hüquqlarının müdafiəsi üçün cinayət prosesini həyata keçirən orqanlara və ya məhkəməyə müraciət edən şəxs;
2. **Hakim** — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin vəzifəyə təyin edilmiş şəxs (məhkəmənin sədri, onun müavini, kollegiya sədri və ya birinci, apellyasiya, yaxud kassasiya instansiyası məhkəməsinin hakimi);
3. **Məhkəmə iclasında sədrlik edən** — cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiallara təkbaşına, bir neçə hakimdən ibarət tərkibdə baxılarkən məhkəmə iclasında sədrlik edən hakim;
4. **Cinayət prosesinin iştirakçıları** — təhqiqatçı, müstəntiq, prokuror, habelə zərərçəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, onların qanuni nümayəndələri və nümayəndələri, şübhəli və ya təqsirləndirilən şəxs, onların qanuni nümayəndələri, müdafiəçi, barəsində cinayəthüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, mülki cavabdeh, onun qanuni nümayəndəsi və ya nümayəndəsi;
5. **Prokuror** — öz səlahiyyətləri daxilində cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxs;
6. **Müstəntiq** — öz səlahiyyətləri daxilində cinayət işi üzrə ibtidai istintaqı aparan şəxs;

7. **Təhqiqatçı** — öz səlahiyyətləri daxilində cinayət təqibi üzrə təhqiqat aparan şəxs;
8. **Xüsusi ittihamçı** —məhkəmədə ittiham irəli sürən və onu müdafiə edən zərərçəkmiş şəxs;
9. **Cinayət prosesində iştirak edən digər şəxslər** — hal şahidi, şahid, mütəxəssis, ekspert, məhkəmə iclasının katibi və tərcüməçi;
10. **Qanuni nümayəndə** — zərərçəkmiş şəxsin, mülki iddiaçının, şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil edən valideynlər, övladlığa götürənlər, qəyyumlar, himayəçilər, habelə qəyyumluq və ya himayəçilik orqanı;
11. **Nümayəndə** — zərərçəkmiş şəxsin, mülki iddiaçının, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil, həmçinin zərərçəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin yaxın qohumu, habelə zərərçəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri;
12. **Yaxın qohumlar** — babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr;
13. **Qohumlar** — babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ya

ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumları;

14. **İttiham tərəfi** — birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərərçəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı;
15. **Müdafiə tərəfi** — birlikdə götürülmüş şübhəli və ya təqsirləndirilən şəxs, onun müdafiəçisi, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, onun müdafiəçisi və mülki cavabdeh.



## Nədir?

1. **Cinayət hadisəsi** — cinayətin əlamətlərini özündə əks etdirən hadisə;

2. **Cinayət prosesi** — cinayət təqibi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul olunan prosessual qərarların məcmusu;

3. **Cinayət təqibi** — cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyət;

4. **Cinayət işi** — törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusu;

5. **Zərər** — cinayət nəticəsində zərərçəkmiş şəxsə vurulmuş mənəvi, fiziki və ya maddi ziyan;

6. **Prosessual hərəkətlər** — cinayət prosesi iştirakçılarının Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş və onun müddəalarına uyğun həyata keçirdikləri hərəkətlər;

7. **İttiham** — şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsi;

8. **Qətimkan tədbiri** — Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş

hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını müvəqqəti məhdudlaşdırmaqla onun haqqında seçilən prosessual məcburiyyət tədbiri:

**Qətimkan tədbirləri aşağıdakılardır:**

*həbs*
*ev dustaqlığı*
*girov*
*başqa yerə getməmək barədə iltizam*
*şəxsi zaminlik*
*təşkilatın zaminliyi*
*polisin nəzarəti altına vermə*
*yetkinlik yaşına çatmayanı nəzarət altına vermə*
*komandanlığın müşahidəsi altına vermə*
*vəzifədən kənarlaşdırma*

9. **Tutulma** — şəxsin azadlığını qısa müddətə məhdudlaşdırmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılması;

10. **Həbs** — qətimkan tədbiri qismində təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla həbs yerlərində saxlanılması;

11. **Vəsatət** — cinayət prosesi iştirakçılarının cinayət prosesini həyata keçirən orqana ünvanlanmış xahişi;

12. **İzahat** — cinayət prosesi iştirakçılarının və ya ərizəçilərin özlərinin, yaxud təmsil etdikləri şəxsin tələblərini əsaslandırmaq üçün göstərdikləri şifahi və ya yazılı dəlillər;

13. **Prosessual qərar** — cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hakimin və ya hakimlərin (hökmlər istisna edilməklə), habelə təhqiqatçının, müstəntiqin, yaxud prokurorun qəbul etdiyi prosessual akt;
14. **Məhkəmənin hökmü** — şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərar;
15. **Protest** — dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokuror tərəfindən yuxarı məhkəməyə verilən şikayət;
16. **Şikayət** — prosessual hərəkətlərin və ya prosessual qərarların qanunsuz, yaxud əsassız olduğu barədə cinayət prosesini həyata keçirən orqana ünvanlanmış yazılı müraciət;
17. **Prosessual sənədlər** – ərizə, şikayət, protest, vəsatət, etiraz, bildiriş, çağırış vərəqəsi, rəy, ekspert rəyi, qərar, hökm və bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada məhkəmə və ya cinayət prosesinin iştirakçıları tərəfindən tərtib edilən digər sənədlər;
18. **Açıq informasiya** – qanunvericiliklə əldə olunması məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş informasiya;
19. **Qanunla məhdudlaşdırılan informasiya** – əldə olunmasına qanunla müəyyən çərçivələr qoyulmuş məlumatlar (məxfi və konfidensial);

20. **Məxfi informasiya** – əldə olunması qanunvericiliklə məhdudlaşdırılan sənədləşdirilmiş məlumatlar (dövlət sirri);
21. **Konfidensial informasiya** – əldə olunması, işlənməsi, yaxud istifadəsi vətəndaşların və hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə qanunla məhdudlaşdırılan peşə, kommersiya, istintaq və məhkəmə sirləri;
22. **Hüquqi rejim** – bu və ya digər fəaliyyət sahəsini tənzimləyən, həmin sahə üzrə müəyyənləşdirilmiş bütün normaları sistem şəklində birləşdirən və qanunvericilik aktlarında öz əksini tapan qaydalar toplusu;
23. **İnformasiyanın hüquqi rejimi** – məlumatların əldə olunması, sənədləşdirilməsi, saxlanılması, mühafizəsi və yayılmasına dair qanunla təsbit olunmuş qaydalar toplusu;
24. **İnformasiya əldə etmək hüququ** – hər kəsin birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahəsində sorğu vermək, özünə lazım olan məlumatın növünü və əldə etmə formasını seçmək hüququ;
25. **İstintaq sirri** – cinayət işi üzrə məhkəmə baxışınadək yayılmasına icazə verilməyən ibtidai araşdırma məlumatları;
26. **Məhkəmə sirri** – 1) qapalı məhkəmə iclaslarında müəyyən edilmiş, ictimaiyyətə açıqlanması qanunla məhdudlaşdırılan məlumatlar, 2) qərarların çıxarıldığı müşavirə otağında müzakirələrə dair qanunla gizli saxlanılmalı olan məlumatlar;

27. **Vəkil sirri** – vəkilin peşə fəaliyyəti ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər, arayışlar barədə yayılması qadağan edilən informasiya;

28. **Açıq məhkəmə iclası** – dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsinin başqa şəxslərin iştirakı ilə keçirildiyi iclas;

29. **Qapalı məhkəmə iclası** – dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunması məqsədilə kənar şəxslərin iştirak etmədiyi iclas;

30. **Kriminal reportaj** – törədilmiş cinayət haqqında hadisə yerindən hazırlanan material;

31. **Məhkəmə reportajı** – məhkəmə prosesləri barədə bilavasitə iclas zallarından hazırlanan jurnalist materialı;

32. **Cərimə** – hər hansı bir hüquq pozuntusuna görə redaksiya, jurnalist tərəfindən dövlətin, yaxud zərərçəkənin xeyrinə ödənilən maddi vəsait, cəza növü;

33. **Təkzib hüququ** – mediada fiziki və hüquqi şəxsin şərəfini, ləyaqətini ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar yayıldıqda, fikirləri təhrif olunduqda həmin şəxsin, yaxud onun nümayəndəsinin mediada təkziblə çıxış etmək hüququ.

## İstifadə edilmiş mənbələr:


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi? http://e-qanun.az/framework/46950.
2. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Bakı şəhəri, 07.12.1999, № 769IQ.
3. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Bakı şəhəri, 30 sentyabr 2005, № 1024IIQ.
4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 3 aprel 1998, № 460 IQ.
5. Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları, Bakı şəhəri, 15 mart 2003.
6. Jurnalistika terminləri lüğəti, Qulu Məhərrəmli, Elçin Şıxlı, Bakı, Altun Kitab, 2016.




# QEYD ÜÇÜN

*Azərbaycan Respublikası Baş Prokurorluğunun
mətbəəsində çap olunmuşdur.*